**UOT 94 (479.24)**

# VII-IX ƏSRLƏRDƏ PAVLİKİANLAR HƏRƏKATINA DAİR

**H.R.ŞAMIYEVA**
***AMEA A.Bakıxanov adına Tarix İnstitutu***
***hayatsemi@rambler.ru***

*Məqalə VII əsrdə meydana gəlib orta əsrlərin ən geniş antifeodal, uzunsürən, və kütləvi bidətçi hərəkatlarından biri olan pavlikianlar hərəkatına həsr edilmişdir. Bu hərəkatın yalnız Bizans imperiyası tarixində deyil, eləcə də Qafqaz Albaniyası tarixində varlığı bir fakt kimi ortaya qoyulmuşdur. Məlum olmuşdur ki, VII-IX əsrlərdə ikiyüz ildən artıq bir müddət ərzində pavlikianlar bidətçi bir hərəkat kimi Girdiman və Balasakan vilayətlərində mövcud olmuş və Albaniya tarixində dini-siyasi hərəkat kimi iz buraxmışdır. Çox güman ki, məhz pavlikianlar hərəkatının təsiri altında bu vilayətlər uzun zaman həm yerli feodallara, həm də yadelli basqınlara qarşı qüdrətli xalq hərəkatının mərkəzi olmuşdur.*

**Açar sözlər:** VII-IX əsrlər , pavlikian , dini-siyasi, hərəkat

VII əsrdə meydana gəlib, orta əsrlərin ən geniş antifeodal, uzunsürən və kütləvi bidətçi hərəkatlarından biri pavlikianlar hərəkatı idi. Bu hərəkat indiyədək məlum olduğu kimi, yalnız Bizans imperiyası tarixində deyil, həmçinin Qafqaz Albaniyasının tarixində də iz buraxmışdır. Bu faktı təkcə qədim yunan, Bizans və ərəb müəllifləri deyil, eyni zamanda müasir erməni müəlliflərinin özləri də sübut etmişlər. Lakin erməni müəllifləri Bizansla bərabər Ermənistan adını da çəkmişlər ki, bu da Bizans daxilində olan bəzi ərazilərə Ermənistan adının verilməsidir desək, daha çox həqiqətə uyğun olardı.

Pavlikianlar haqqında ən qədim məlumatı 706-707-ci illərdə Bərdədə çağırılmış Alban kilsə məclisinin bu təriqətin nümayəndələrini bidətçilər kimi mühakimə edən qərarında görmək olur. Uzun – on illər davam edən bu hərəkat Girdimanda və Balasakanda daha geniş yayılmış, sonrakı ərəb ağalığı dövründə isə ərəb üsul-idarəsinə qarşı yönəlmişdi [1, 63]. Mərkəzi Asiya və Cənubi Qafqazda yerli əhalinin ərəb ağalığına qarşı müqavimət hərəkatı daha uzunömürlü, təşkilatlanmış halda və uğurla aparılmışdır [2, 96]. Bu hərəkatlar sırasında pavlikianlar hərəkatının xüsusi yeri vardır.

Z.M.Bünyadovun fikrincə, indiyədək heç bir tədqiqatçı deməmişdir ki, pavlikian hərəkatının meydana gəlməsi Albaniya ilə əlaqədardır [3, 213].

R.M.Bartikyan qeyd etmişdir ki, çox qədimdə pavlikianların adı «ən uzaq Qafqaz Albaniyasında da» çəkilirdi [3, 213].

XX əsr erməni müəllifi R. M. Bartikyan pavlikianlar hərəkatının VI əsrdə deyil, VII əsrdə meydana gəlməsini sübut etməyə çalışmışdır [4, 41]. O, Matenadaranda olan iki əlyazması sənədinə əsasən aşkara çıxarmışdır ki, ən qədim bir mənbədə: 706-707-ci illərdəki Partav (Alban) kilsə yığıncağının qətnaməsində pavlikianların adı çəkilir. R.M.Bartikyan bu sənədi qrabardan rus dilinə tərcümə etmişdir. O yazır ki, pavlikianlar hərəkatı VIII əsrin əvvəllərində təkcə Bizans və Ermənistanın deyil, eyni zamanda Qafqaz Albaniyasının da hakim dairələrini lərzəyə salmışdı [4, 41]. Müəllif haqlı olaraq əlavə edir: «Qafqaz Albaniyasının 702-705-ci illər ərzində keçirilən kilsə məclislərinin materiallarına əsasən söyləmək mümkündür ki, VIII əsrin əvvəllərində pavlikianlar hərəkatı bu ölkənin dini və dünyəvi feodallarını da qorxuya salmışdı». Mənbələrə əsaslanaraq R. M. Bartikyan pavlikianlar hərəkatının Bizansdan Azərbaycan ərazisinə keçməsini təsdiq etmişdir [4, 102].

Pavlikianlar hərəkatını öyrənərkən istinad edilən mənbə və ədəbiyyat [4; 7; 9] sübut etmişdir ki, pavlikianlar hərəkatı təkcə sosial hərəkat deyil, eyni zamanda Qafqazda baş verən və yadellilərin ağalığına qarşı yönəlmiş milli-azadlıq hərəkatı idi. R.M.Bartikyan Gevondun yazdıqlarına əsasən pavlikianlar hərəkatının tarixini dəqiqləşdirmək üçün vacib olan xronoloji ardıcıllığı izləmiş və aşağıdakı şəkildə təqdim etmişdir: 1) İosif və Zaxarinin başçılığı ilə pavlikianların 748-ci ildə Mananalisdən Episparisə qaçdıqları tarix, 2) İosifin Episparisdən Antioxiyaya qaçdığı tarix və nəhayət, 3) bidətçi Geqnesiyin ölüm tarixi [4, 49].

F.Məmmədova V-VII əsrlərin sosial hərəkatlarından danışarkən yazır ki, V-VII əsrlərin hadisələrindən bəhs edən Bizans, Suriya və erməni tarixçiləri sosial hərəkatlara toxunmamışlar [9, 376]. Aydındır ki, erkən orta və orta əsrlərdə istənilən sosial hərəkat, rəsmi dinlə bidətçi təlimlər arasındakı fikir ayrılıqlarından doğurdu və dini təriqətlər pərdəsi altında həyata keçirilirdi. Pavlikian bidətinin, yalnız Qafqaz Albaniyasının hakim yuxarı təbəqələri arasında yayılmasının qarşısının alınmasına müvəffəq olunmuşdu. Əhalinin aşağı təbəqələri arasında isə bu hərəkat geniş vüsət almışdı.

VII əsrin axırı – VIII əsrin əvvəllərində ərəblər Albaniyada öz hakimiyyətlərini hələ qurmamış olsalar da, Qafqaz Albaniyası üzərinə böyük bac qoymuşdular. Yerli feodallar verdikləri bacın yerini əhalidən yığılan vergiləri artırmaqla doldurmaq istəyəndə təbii ki, xalqın narazılığı ilə qarşılaşmışlar. Bu isə bidət hərəkatı xarakterində özünü biruzə vermişdi. Bu bidət hərəkatlarından biri də məhz pavlikian hərəkatı olmuşdur. Geniş əhali təbəqələri arasında pavlikian bidəti böyük antifeodal hərəkat xarakteri aldı və bu hərəkatda alban vilayətlərindən Girdiman və Balasakan xüsusi yer tuturdu.

Ərəb müəlliflərinin verdiyi məlumatlarda elə hadisələrə və fəaliyyətlərə təsadüf edilir ki, bunlar pavlikianların fəaliyyətinə çox oxşayır. VIII-IX əsrlərdə Beyləqan əyalətinin əhalisi ərəblərə möhkəm itaətsizlik göstərmişdilər:

Fikrimizcə bu hal Qafqaz Albaniyasında bidətçilərin, xüsusilə pavlikianların böyük fəaliyyətinin nəticəsi idi. Məsələn, Z.M. Bünyadov Bəlazuridən olan tərcüməsində bildirmişdir ki, xəlifə Əbul-Abbasın (750-754) hökmranlığı zamanı Beyləqan əhalisi üsyan qaldırıb Gilab qalasına girmişdi. Onların başçısı Kabad ibn Asəf əl-Beyləqani idi [3, 209- 216]. Yəqubi də bu hadisədən bəhs etmişdir: «Gilab qalasına çoxlu avara toplanmışdı» və bunların başçısı Vard ibn Səfvan əs-Sami idi. Yəqubi «avaralar» deyəndə Gevondun «günahkar oğullar» adını verdiyi adamlara oxşar insanları nəzərdə tuturdu [3, 216; 12, 429]. «Günahkar oğullar» istilahı məhz pavlikianlara aid olan bir istilahdır. Buna görə də, üsyan qaldırıb Gilab qalasına girən əhalinin pavlikianlar olduğunu söyləmək mümkündür.

R.M.Bartikyan Gevondun əsərini təhlil edərək yazır ki, «bu əsərdəki pavlikianlar hərəkatına dair hissələr tarixçilər tərəfindən demək olar ki, istifadə edilməmişdir. Bu ondan irəli gəlir ki, Gevond bütün əsər boyu pavlikianların adını çəkmir. Yalnız İohan Odzunskinin çıxışlarında və «Pavlikianlara qarşı mübarizə» adlı fəsildən başqa heç yerdə bidətçilərin adına rast gəlmirik. Bu isə epoxanı oxuyan hər kəsə aydın ola bilməz» [4, 41-42]. Müəllif Gevondun yazdıqlarından aşağıdakı subyektiv nəticəyə gəlmişdir: «Birincisi, «günahkar oğullar» dedikdə müəllif erməniləri nəzərdə tutur, əks təqdirdə tarixçi onların fəaliyyətlərini müzakirə obyektinə çevirərkən heç vaxt onu gəlmələr və yaxud da yadellilər kimi qeyd etməzdi» [4, 41]. R.M.Bartikyan belə hesab etmişdir ki, bunlar (günahkar oğullar-H. Ş.) yalnız pavlikianlar ola bilərdi. O, öz əsərində pavlikianların hər vəchlə ermənilərdən ibarət olması və bu hərəkatın başında duranların erməni bidətçiləri olması fikrini yürütmüşdür. Təbii ki, bu da müəllifin öz millətinin mövqeyindən çıxış etməsi faktından irəli gəlmişdir.

Z.M.Bünyadovun fikrncə isə «pavlikianlar 768-ci ildə Partav kilsə yığıncağının qətnamələrində adı çəkilən bidətçilərdən ibarət idi» [3, 216]. Həmin qətnamədə belə deyilir: «Qoy kilsələrdə maneəsiz olaraq vardapetlər (müəllimlər) təyin olunsunlar ki, Allahın idrak təliminə maneçilik göstərilməsin və kilsələri pozan təfriqətçi bidət onlara sirayət etməsin» [4, 94].

R.M.Bartikyan yuxarıda göstərilən bölgüyə davam edərək yazmışdır: «İkincisi, «günahkar oğullar» yunan və erməni qoşunlarının toplandığı Pont ərazisinin yerli sakinləri deyildilər. Əks halda onlar da «göndərilmiş» üsyançı qoşunlarına birləşərdilər» [4, 42]. R.M.Bartikyan yenə də öz mövqeyinə sadiq qalaraq «yunan qoşunları» söz birləşməsinə «erməni» sözünü də yamaq kimi əlavə etmişdir. Müəllif sözünə davam edərək yazmışdır ki, «Üçüncüsü, «günahkar oğullar» Gevondun sözləri ilə desək, allahdan qorxmurdular» [4, 42]. Gevond yalnız rəsmi kilsəyə tabe olmayanları nəzərdə tuta bilərdi.

Dördüncüsü, bütün bu deyilənlərə əsasən belə nəticəyə gəlmək olar ki, «günahkar oğullar» knyazlardan qorxmur, yuxarılara itaət etmir, bir sözlə müqəddəs hakimiyyətə tabe olmurdular” [4, 42]. Ola bilər ki, bunlar hakimiyyətə müxalif mövqedə duranlar olmuşdur.

Qətiyyətlə söyləmək olar ki, «günahkar oğullar» pavlikianlar idi. R.M.Bartikyan öz əsərində bu məsələyə münasibət bildirərək yazır ki, yunan mənbələri «günahkar oğullar»ın pavlikianlar olduğunu dəqiqliklə sübut etmişdilər. Lakin Bartikyan bir məsələni yaddan çıxarmışdır ki, yunan müəllifləri «günahkar oğullar»ın pavlikianlar olmasını söyləyirlər, pavlikianların erməni olmasını yox. R.M.Bartikyana görə, yunan müəllifi Pyotr Siciliyalı özünün məşhur «Pavlikian tarixi» əsərində göstərmişdir ki, bidətçi Geqnesinin Mananalisdə ölümündən sonra onun pavlikianların başında duran ardıcılları İosif Epofrodit və Zaxariy ərəblərin hakimiyyətindən çıxıb gizli olaraq Bizans hakimiyyətini qəbul etməyə cəhd etmişlər. Geqnesinin ölümünün səbəbi yunan müəllifinin əsərindən məlum olurdu. O, vəba tutduğuna görə ölmüşdür. Məşhur Belçika bizansşünası A.Qrequar sübut etmişdir ki, Geqnesiy 746-747-ci illərin qorxulu epidemiyası zamanı həlak olub [6, 299; 4, 42]. Onun yazdığına görə, bunu Bizans müəllifi Feofan və patriarx Nikifor da qeyd etmişlər. Beləliklə, pavlikianların Mananalisdən çıxaraq Ponta, Episparisə gəlmələri 748-ci ilə təsadüf edir. Bu da Geqnesiyin ölümündən bir il sonra baş vermişdir. Bu pavlikianların simasında Gevondun «günahkar oğullar»ının simasını görmək mümkündür. Onlar Ponta gələrək üsyan etmiş erməni qoşunlarına qoşulmuşdular. Yunan müəllifi Pyotr Siciliyalının yazdıqlarından R.M.Bartikyan bu nəticəyə gəlmişdir ki, ərəblər qaçqın pavlikianları təqib edirmişlər və dəhşətli qırğın törədirmişlər [4, 43]. Bu qırğında Zaxari və onun tərəfdarları da ziyan çəkmişlər. İosif öz tərəfdarları ilə birgə güclə qaçıb canını qurtarmış və Bizans sərhədlərinə çatmışdır.

Bütün bunlar VIII əsrin birinci yarısında Xilafətin yürütdüyü daxili siyasətin tərəflərini üzə çıxarır. R.M.Bartikyan öz əsərində Suriya patriarxı Mixail Suriyalının «Xronoqrafiya»sındakı 352-ci səhifəyə istinadən göstərir ki, «Xilafətdə … gümüş qiymətdən düşürdü, hətta öküz və uzunqulaqların bir başı bir draxmaya satılırdı. Oğlan uşaqları da vergi yığanlara adama 5 draxmadan pul ödəyirdilər. Camaat hətta vergiləri ödəmək üçün qəbirləri qazaraq qızıl və gümüş axtarışına çıxırdılar. Güman etmək çox çətindir ki, Xilafətin bu siyasəti bidətçi pavlikianların yaranmasına gətirib çıxarmışdı. Çünki onların əksəriyyəti əkinçilik və heyvandarlıqla məşğul olmuş adamlar idilər. Bidətçi pavlikianlar Qriqori Mamikonyanın ərəblərə qarşı üsyanından xəbər tutan kimi bu üsyanda iştirak etmək qərarına gəlirlər» [4, 46].

R.M.Bartikyanın fikrincə, pavlikian hərəkatının əsas mərkəzi olan Mananalis ərəblər tərəfindən tutulduğuna görə, qaçqın pavlikianlar Bizansın Pont vilayətinin Episparis adlanan yerində toplanmışdılar. Burada «onları yerli əhali sevinclə qarşılayır. Bütün camaat İosifi Xristosun şagirdi kimi böyük hörmət və izzətlə qarşılayırdı» [4, 47].

Pavlikianlar hərəkatının dini ideologiyasının nədən ibarət olması çox zaman tarixçilərin nəzərindən kənarda qalmışdır. R.M.Bartikyanın göstərdiyinə görə, bidətçilər günəşə and içir, bidətçi manixeylər və maq Simonun tərəfdarları kimi sanki havadan ibarət (səmavi) iblisləri (ruhları) çağırır və

guya ki, gənc qadının ilk doğulan körpəsini biri-birlərinə atmaqla ötürür və körpə kimin əlində ölürdüsə onu da yeresiarx elan edirdilər [4, 35]. Bütün söylənilənlərdən, güman etmək olmaz ki, onun ideyaları yalnız pavlikianlar hərəkatının meydana gəldiyi tarixlə əlaqədardır. Bu ideyalar pavlikianlara qədərki manixeylər və digər bidətçi qruplar arasında da geniş yayılmışdı. Pavlikianlar hərəkatının öyrənilməsində ən vacib mənbələrdən biri kimi R.M.Bartikyan yunan müəllifi Pyotr Siciliyalının «Faydalı tarix» əsərini göstərir [4, 103]. Çünki bu əsərin müəllifi uzun müddət bidətçi pavlikianlar arasında yaşamış və bu əsər müəllifin şəxsi müşahidələrinin əsasında yazılmışdır.

Rusiya tarixçisi Y.M.Saprıkin öz əsərində [10] antifeodal kəndli hərəkatlarından bəhs edərkən pavlikianlar hərəkatına da toxunmuşdur. O, yazır ki, «242-277-ci illərdə Sasani İranında baş qaldırmış və dualizmə əsaslanan Mani təliminin təsiri orta əsrlərin sosial hərəkatlarında hiss edilməkdə idi. Mani təliminin dualizmi ondan ibarət idi ki, yer üzündə iki bir-birinə zidd qüvvələr İşıq və Qaranlıq, yaxud da Xeyir və Şər arasında daima mübarizə gedir. Onların hər biri öz allahlarından yaranmışlar və ona tabedirlər. Bu təlimin məğzi ondan ibarətdir ki, «İşıq Allahı ilk insanı yaratmış və onu qaranlıq Allahı ilə mübarizəyə göndərmişdir. Amma, Qaranlıq Allahı onu məğlub etmiş və ilk insanın ürəyində ilahi işığın yerinin bir hissəsini zəbt etmişdir» [10, 4]. Bəlkə də buna görə yer üzərindəki bütün insanlar material Aləmin bir üzvü kimi qaranlıq Allahının övladlarıdırlar. «Amma ürəklərdəki məhəbbət, İşıq Allahının bir parçasıdır» [10, 4]. Y.M.Saprıkin dini-siyasi hərəkatlara münasibətini bildirərək əlavə edir ki, 820-ci ildə Foma Slavyaninin üsyanında pavlikian dəstələri də iştirak etmişdir. Bu üsyan yatırıldıqdan sonra Bizansda pavlikianlara qarşı repressiya güclənmişdir. Buna görə də, IX əsrin ortalarında onlar yenidən baş qaldırmış və onlara Karbeas və Xrizoxir başçılıq etmişdir. Pavlikianların əsas mübarizə mərkəzi Tefrik qalası (Tefrik Türkiyə ərazisində Sivas ilinin Divriğe ilçesinin qədim adıdır – **H.Ş.**) olmuşdur. 872-ci ildə qalanın alınması pavlikianlar hərəkatına ağır zərbə vurmuşdur [10, 6-7].

«Gevonddan sonrakı erməni mənbələri müasir pavlikianları daha pavlikianlar adı ilə xatırlatmamışlar. Bidətçilər barəsində isə yalnız Partav kilsə məclisində danışırdılar» [4, 51]. R.M.Bartikyan pavlikianların sonrakı taleyi haqqında çap etdirdiyi daha bir məqaləsində isə belə yazır: «Pavlikianların Kiçik Asiyadakı fəaliyyətləri haqqında Bizans mənbələrində məlumata rast gəlmirik. Həqiqətən də, bidətçilərin 872-ci ildəki hərbi məğlubiyyətindən sonra pavlikianlıq bu sözün əsl mənasındakı mahiyyətini kəsb etdi. Pavlikianların qalan hissəsi isə Şərqi Ermənistan (müəllif Bizans ərazisini Şərqi Ermənistan kimi qələmə vermişdir – **H.Ş.**) ərazisinə keçərək IX əsrin birinci yarışında başlamış tondrakilər hərəkatına qoşularaq onları daha da gücləndirdilər» [4, 62; 11, 311]. Daha sonra isə pavlikianların, əsas etibarı ilə bidətçilər kimi Frakiya ərazisində məskən salmalarından yazmışdır. Tondrakilər hərəkatının baniləri «müqəddəslərin bütün fəaliyyətlərini ləğv etməyi» qarşılarına əsas məqsəd qoymuşdular. Tondrakilər «Biz bütpərəstlər deyilik, biz allahpərəstlərik»

deyirdilər [11, 311]. Onlar «biz heç bir xaçı, heç bir kilsəni və heç bir müqəddəsi qəbul etmirik» deməklə öz ideyalarını irəli sürürmüşlər. Pavlikianların daha bir yüz il keçdikdən sonra Bizans ərazisində məskən salıb möhkəmlənmələri bir qədər şübhəli görünürdü. Hər halda bu fikri R.M.Bartikyan Anna Komninin şəhadətinə əsasən yazmışdır [4, 63].

Z.M.Bünyadov isə pavlikianların sonrakı fəaliyyətini müəyyən edərkən belə nəticəyə gəlmişdir: «Ağvan tarixi»nin nəşr edilməmiş parçasında adı çəkilən və 840/1-ci ildə Yesai Əbu Musa tərəfindən darmadağın edilən balakanasik ilə 830/1-ci ildə üsyan qaldıran balasakanlılar - eyni adamlardır [3, 218]. Həmin balasakanlılar və ya beyləqanlılar-pavlikianlar ola bilərdilər. Əvvəldə də söylədik ki, Qafqaz Albaniyasının Girdiman və Balasakan (Beyləqan) vilayətləri pavlikianların ən çox fəaliyyət göstərdikləri ərazilər idi. Pavlikianların əksəriyyəti sıxışdırıldıqlarına görə bu ərazilərdən Bizansa köçmüşlər, qalan hissəsi isə ərəblərin təsiri altında müsəlmanlaşdırılmış və assimilyasiyaya məruz qalmışdır.

VII-IX əsrlərdə 200 ildən artıq fəaliyyət göstərmiş pavlikianlar, xüsusən Girdiman və Balasakan vilayətlərində bidətçi bir təriqət kimi mövcud olmuş və Albaniya tarixində xüsusi iz buraxmışdır. Çox güman ki, məhz pavlikianlar hərəkatının təsiri altında bu vilayətlər uzun zaman həm yerli feodallara, həm də yadelli basqınlara qarşı qüdrətli xalq hərəkatının mərkəzi olmuşdur.

## ƏDƏBİYYAT


1. Azərbaycan tarixi. II cild, Bakı: Elm, 2007, 608+24 s.
2. Ахундова Н.Ч. Тюрки в системе государственного управления арабского халифата (VIII сер. X вв.). Баку: Елм, 2004, 374 с.
3. Bünyadov Z.M. Azərbaycan VII-IX əsrlərdə. Bakı: Azərnəşr, 1989, 336 s.
4. Бартикян Р.М. Источники для изучения истории павликианского движения. Ереван: АН Арм. ССР, 1961, 218с.
5. Бартикян Р.М. Юзбашян К.Н. Новое исследование о павликианском движении // Известия АН Арм ССР, серия общ.наук, № 10, 1954, с.91-96.
6. Gregoire H. Precicions geographiques et chronologiques sue les Pauliciens // Bulletin de I`Academie royale de Belgique? Classe des Lettres, V.33, 1947, p.290-299.
7. Липщиц Е.Э. Очерки истории византийского общества и культуры VIII-первая половина IX в. М.-Л.: Акад. наук СССР, 1961, 482 с.
8. Липщиц Е.Э. Павликианское движение в Византии в VIII и первой половине IX вв. // Византийский вестник, т. V, 1952.
9. Мамедова Ф. Кафказская Албания и албаны. Баку: Центр Исслед. Кавказ. Албании, 2005, 798 с.
10. Сапрыкин Ю.М. Англия XV-XVI вв. Проблемы разложения феодализма и генезиса капитализма / Межвузовский сборник. Горкий: ГГУ им. Н.И.Лобачевского, 1981, 130с.
11. Советская Историческая Энциклопедия. Т. 14, М.: Наука, 1973, 1038 с.
12. Əl-Yəqubi. Kitab əl-buldən. M. de Quyenin nəşri, BGA, Leyden, 1897, VII (ərəb dilində), 429 s.

# О ПАВЛИКИАНСКОМ ДВИЖЕНИИ В VII-IX ВЕКАХ

Х.Р.ШАМЫЕВА

## РЕЗЮМЕ

Статья посвящена павликианскому движению, одному из самый расширенных, массовых, антифеодальных и долгодлительных еретических движений средних веков, которая вышла в VII веке. Это движение, как известно, до сих пор оставил след не только в истории Византийской империи, а так же в истории Албании. В статье показано, что в VII-IX веках павликианцы, которые более 200 лет активно существовали как еретическая секта в области Гирдимана и Баласакана, особенный след оставили и в истории Албании.

**Ключевые слова:** VII-IX в., павликиан, религиозно-политическое движение

# THE MOVEMENT OF PAVLIKIANS IN THE VII-IX CENTURİES

H.R.SHAMIYEVA

## SUMMARY

The article was devoted to the movement of Pavlikians which was one of the widest anti-feodal, prolonged and popular dissidence movements appeared in the VII century. As it is known, this movement has given an indication not only in the history of Byzantine Empire, but also in the history of Albania up to now. It is noted that the movements of Pavlikians existed as dissidence in the provinces of Balasakan and Girdiman for more than 200 years, in the VII-IX centuries and had given a special indication to the history of Albania.

**Key words:** VII-IX centuries, Pavlikians, religious-political, movement